# Prezident İlham Əliyev: Bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir

*Azərbaycan Ordusu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etdi, torpaqlarımız işğaldan azad olundu. Bu, Vətən müharibəsində qələbə qazanan, bu qələbəylə tarix yazan ordumuzun qüdrətidir. Döyüş iştirakçılarının fikirləri də tarix kimi yaşadılacaq.*



**Zabit Rəşad Əliyev:**

- Yenilməz Azərbaycan Ordusu düşməni döyüş meydanında məğlub etdi. Vətən torpaqlarının azadlığı uğrunda başlayan əks-hücum əməliyyatında erməni silahlı birləşmələrinin yüzlərlə canlı qüvvəsi, döyüş texnikası bölmələrimiz tərəfindən məhv edildi. Düşmənin çoxlu sayda texnikasını götürdük. Erməni hərbi birləşmələrində fərarilik baş alıb gedirdi. Artıq işğalçının sonunun yaxınlaşdığını hiss edirdik. Onların təslim olmaqdan başqa çarələri qalmadı. Ərazi bütövlüyümüz bərpa olundu. Ali Baş Komandanın rəhbərliyi altında şanlı Azərbaycan Ordusu döyüş meydanında qəhrəmanlıq tariximizə yeni-yeni şərəfli səhifələr yazdı. Apardığımız əməliyyatlar zamanı şəxsi heyətin döyüş əzmi, vətənpərvərlik ruhu çox yüksək idi. Demək olar ki, hər gün işğal altında olan ərazilərimizi azad edir, o yerlərə üçrəngli bayrağımızı sancırdıq. Bu gün ordumuzun azad etdiyi tarixi torpaqlarımız üçrəngli Azərbaycan Bayrağına bürünüb. Hər yerdə şanlı bayrağımız dalğalanır. Bu biz döyüşçülərə daha böyük qürur verir. Şanlı bayrağımız zirvələrdə qərar tutan Şuşada da dalğalanır. Aprel döyüşlərindən dərs almayan erməni hərbi birləşmələri ordumuzun yüksək peşəkarlığı sayəsində hədəfləri dəqiq zərbələrlə darmadağın etdi. Tarix yazan ordumuz düşmənə göz dağı oldu. İllərdir işğal altında olan torpaqlarını Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitləri düşməndən azad etdi. Xalqımız hər gün cəbhədən qələbə xəbərləri alırdı. Rayonlarımız, kəndlərimiz işğalçılardan təmizləndi. Mən də Azərbaycan Ordusunun zabiti olaraq torpaqlarımızın azadlığı uğrunda gedən döyüş həmləsində iştirakımla şərəf duyuram. Biz bu günləri səbirsizliklə gözlədik. Bizim müdrik Ali Baş Komandanımız var. Müzəffər Azərbaycan Ordusu Qarabağda zəfər qazandı. Qarabağ Azərbaycandır!



**Zabit Xəlqi Haqverdiyev:**

- Mən istehkamçıyam. Döyüşdə istehkamçının fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Döyüşün önündə getmək mənim vəzifə borcumdur. Xidmətimlə şərəf duyuram. İşğaldan azad olunmuş ərazilərimizi düşmənin basdırdığı minalardan təmizləyir, bölmələrimizin düşmən üzərinə əks-həmləsi üçün təhlükəsiz dəhlizlər açırdıq. Ordumuz gündən-günə irəliləyirdi. Tarixi torpaqlarımız düşmən işğalından azad olundu. Soydaşlarımızın öz ata-baba yurduna təhlükəsiz qayıtmaları üçün də hələ qarşıda görüləsi böyük işlərimiz var. Haqq savaşımız Böyük Qələbə ilə başa çatdıqdan sonra işğaldan azad olunmuş rayonlarımızda, kəndlərimizdə bərpa işləri başlayacaq. Erməni faşistlərinin viran qoyduğu ərazilərimizdə, ata-baba torpaqlarımızda yenidən həyat yaranacaq. Biz istehkamçılar da bu quruculuq işlərində iştirakçı olacağıq. Xüsusi olaraq onu da qeyd etmək istəyirəm ki, döyüş meydanında hünər göstərən əsgər və zabitlərimizə xalqımızın böyük dəstəyi, güvəni var idi. Bu bizi daha da böyük qələbələrə ruhlandırırdı. Arxa cəbhənin ürəyi ön cəbhə ilə döyünürdü. Bax, bu birliyin, həmrəyliyin sayəsində qələbə bizim oldu. Azərbaycan Ordusunun döyüş meydanında apardığı haqq savaşı qələbəmizlə başa çatdı. Tarixi torpaqlarımız düşmən işğalında qalmadı.

**Əsgər Orxan Əliyev:**

- Ordumuz irəlilədikcə erməni işğalçıları daha çox azğınlaşırdı. Əks-hücum əməliyyatı başlandığı gündən ordumuz döyüş meydanında düşmənə ən ağır zərbələr endirdi. Ermənilər isə yenə də faşist xislətlərinə sadiq qalaraq dinc insanları - uşaq, qoca, qadın, xəstə demədən mülki vətəndaşlarımızı hədəfə alırdılar. Onlar döyüş bölgəsindən uzaq məsafədə yerləşən ərazilərimizi raket atəşinə tuturdular. Bizi heç nə sarsıda bilməzdi, heç nə yolumuzdan döndərə bilməzdi. Biz haqq yolundaydıq. Tarixi torpaqlarımızı erməni işğalçılarından təmizləyirdik. Onlar isə döyüş meydanından qaçırdılar. Dinc insanlarımızı gecəyarı yatdıqları yerdə öldürürdülər. Onlar faşistdirlər, onlar terroristdirlər, onlar uşaq qatilləridirlər. Ali Baş Komandanın rəhbərliyi altında qüdrətli ordumuz ərazi bütövlüyümüzü bərpa etməklə, tarixi ədaləti bərpa etdi. 30 ilə yaxındır ki, təcavüzkar Ermənistanın işğal altında saxladığı tarixi torpaqlarımız azadlığına qovuşdu. Torpaqlarımız azad olunanadək döyüş meydanını düşmən əsgərindən fərqli olaraq tərk etmədik. Azərbaycanımızın mədəniyyət beşiyi olan, 28 ildən artıq düşmən əsirliyində qalan doğma Şuşamız öz azadlığına qovuşdu. Qarabağ tariximizin bir parçasıdır. Qarabağ Azərbaycandır! Eşq olsun, zəfər tariximizi yazan Azərbaycan Ordusuna!





**Əsgər İlkin Nəsrullayev:**

- Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmək ən böyük amalım olub. Bu gün Azərbaycan əsgərinin adı hər yerdə şərəflə çəkilir. Mən bununla fəxr edirəm. Vətənimizin bütövlüyü bərpa olundu. Düşmənin bölmələri darmadağın edildi. Biz irəlilədikcə düşmən ordusunun əsgəri silahını atıb döyüş meydanından qaçırdı. Ağ bayraq qaldırıb təslim olurdular. Onlar qorxaqdırlar. Düşməni Ali Baş Komandanın dediyi kimi, iti qovan kimi qovduq torpaqlarımızdan. Artıq erməni işğalçıları döyüş meydanında Azərbaycan Ordusunun əsgərlərinə, zabitlərinə məğlub olduqlarını təsdiqlədilər, təslim oldular. Ordumuz neçə-neçə rayonumuzu, kəndimizi, qəsəbəmizi erməni faşistlərindən təmizləyib. Eşq olsun, Azərbaycan Ordusuna! Qələbə bizimlədir. Ali Baş Komandanımızın "Qarabağ Azərbaycandır!" sözləri biz əsgərlərin döyüş şüarına çevrilmişdi.

**Əsgər Xanlar Abdullayev:**

- Ordumuzun əks-hücum əməliyyatı başlandığı gündən mən də döyüşən əsgərlərin sırasındayam. Biz tarixi torpaqlarımızın azadlığı uğrunda döyüşdük. Bizim savaşımız haqq savaşıdır. Bu haqq savaşında biz qalib gəldik. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Qələbə bizimdir. Qələbə Azərbaycanındır. Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuz erməni qəsbkarlarının işğal etdikləri tarixi torpaqlarımızı azad etdi. Erməni vandalizmi nəticəsində çoxlu sayda tarixi abidələrimiz məhv edilib. Faşizm xislətli düşmən torpaqlarımızda görünməmiş vəhşiliklər törədib. Bu gün də ənənəsinə sadiq qalan, döyüş meydanında məğlub olan erməni faşistləri hərbi obyektləri deyil, dinc insanlarımızı hədəfə alırlar. Onlar Gəncəyə, Bərdəyə istifadəsi qadağan olunmuş raketlər atdılar. Hadisələr nəticəsində mülki insanlarımız yenə də qanlı erməni terrorunun qurbanına çevrildilər. Ordumuz isə Gəncənin, Bərdənin qisasını döyüş meydanında aldı. Sərrast atəşlərlə düşmənin hədəfləri darmadağın edildi. Eşq olsun, Azərbaycan Ordusuna!

**Əsgər Səlim Məmmədov:**

- Bu gün qalib Azərbaycan Ordusunun əsgəri adını daşımağımla mən də şərəf duyuram. Ali Baş Komandanın rəhbərliyi altında başlayan ordumuzun uğurlu əks-hücum əməliyyatında iştirakımla da çox qürurluyam. Biz döyüş meydanında işğalçıları məhv etdik, onları torpaqlarımızdan qovduq. Erməni faşistlərinin illərdir ki, işğal altında saxladıqları torpaqların hər qarışı bizim üçün əzizdir, doğmadır, müqəddəsdir. O torpaqlarda bizim əcdadlarımızın qəbirləri qalıb. Şəhidlərimizin qanı axan torpaqlarımız bizim üçün əlbəttə ki, müqəddəsdir. Faşist xislətli, riyakar ermənilər rədd oldular bizim tarixi torpaqlarımızdan. Azərbaycan əsgərinin fədakarlığı sayəsində Vətənimizin ərazi bütövlüyü bərpa olundu. Biz öz Vətənimizin bütövlüyü uğrunda haqq savaşına qalxdıq. Burada erməninin vətəni, torpağı yoxdur. O, işğalçıdır. Gəlib illərdir bizim torpaqlarımızı işğal altında saxlayıblar. Erməni işğalçılarını Ali Baş Komandanımızın dediyi kimi "İti qovan kimi qovuruq." Biz qalib gəldik. Zəfər bizim oldu!



**Əsgər Tacir Abbaszadə:**

- Rabitəçiyəm. Döyüşdə dayanıqlı, fasiləsiz rabitənin vacibliyini, əhəmiyyətini dərindən bilirəm. Fəxr edirəm ki, torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası uğrunda gedən döyüşlərin mən də iştirakçısıyam. Ordumuzun əsgərləri, zabitləri döyüşə-döyüşə irəliləyirdi, düşmənin illərlə qurduğu istehkamları darmadağın edirdilər, torpaqlarımız kənd-kənd azad olunurdu. Sevinirik ki, torpaq həsrətlisi olan həmvətənlərimiz öz tarixi ata-baba yurdlarına qovuşdular. Qələbə xəbərlərini, döyüşən bölmələrimizin əməliyyatlarının uğurla yerinə yetirilməsi xəbərlərini eşitmək qürurvericidir. Azərbaycan əsgəri içdiyi Hərbi andına sadiqdi, döyüş meydanında işğalçını məhv etdi, torpaqlarının azadlığı uğrunda son damla qanınadək döyüşdü. Erməni əsgəri isə silahını atıb qaçırdı, ölmək istəmirdi. Erməni hərbi birləşmələrində özbaşınalıq, fərarilik halları kütləvi hal almışdı. Ordumuzun ard-arda qələbələri düşməni çox sarsıtdı. Bizdə isə böyük ruh yüksəkliyi, döyüş əzmi vardır.

(Ardı 5-ci səhifədə)

# Prezident İlham Əliyev: Bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir

(Əvvəli 4-cü səhifədə)

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elvin Bədəlov:**

- Ali Baş Komandanımızın rəhbərliyi altında başlayan, 44 gün davam edən ordumuzun əks-hücum əməliyyatı qələbə ilə başa çatdı. Qəhrəman Azərbaycan əsgəri son sözünü döyüş meydanında dedi. İllərdir erməni faşistləri tərəfindən işğal olunan tarixi torpaqlarımız azad olundu. Bu gün o torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanır. Vətən müharibəsində iştirakımla qürur duyuram. Xalqımız bu günlər ağır sınaqdan başıuca, alnıaçıq çıxdı. Ali Baş Komandanın ətrafında sıx birləşdi, ordusunun yanında oldu. Qəlbi cəbhədə döyüşən əsgər övladları ilə döyündü. Biz döyüşçülər Ali Baş Komandanımızdan, xalqımızdan güc aldıq, döyüşlərə, yeni-yeni qələbələrə ruhlandıq, torpaqlarımızı yağılardan təmizlədik. Bu gün Azərbaycanımızın başı üzərində qalibiyyət bayrağı dalğalanır. Erməni silahlı birləşmələrinin işğal etdikləri kəndlərimiz, şəhərlərimiz, yaşayış məntəqələrimiz azad olunub. Artıq Cəbrayıl, Füzuli,



Zəngilan və Qubadlıdan erməni işğalçıları qovulub çıxarılıb. Qədim Şuşamız da düşmən əsirliyindən xilas edilib. Üçrəngli bayrağımız Şuşa qalasına sancılıb. Ərazi bütövlüyümüz bərpa olunub. Ordumuz haqq savaşında qalibdir. Yaşasın, Azərbaycan Ordusu! Yaşasın, Ali Baş Komandan!

**Gizir İlqar Cəfərov:**

- 27 sentyabr tarixində ermənilərin atəşkəsi pozması nəticəsində ordumuzun əks-hücum əməliyyatı başladı. Bu, Vətən müharibəsi idi. Haqq savaşımız idi. Tarixi torpaqlarımız erməni vandallarından təmizlənir. Haqq savaşımızda şanlı ordumuz düşməni qətiyyətlə susdurdu. Ərazi bütövlüyümüzün bərpasını və tarixi ədaləti təmin etdi. Düşmən döyüş meydanında Azərbaycan əsgərinə təslim oldu. Biz Vətən torpaqlarının azadlığı uğrunda döyüşərkən, erməni əsgəri silahını atıb qaçırdı. Biz döyüşçülər ruh yüksəkliyi ilə düşmənin üzərinə gedirdik. İşğalçı ordunun əsgəri isə özgə torpağı uğrunda ölmə-



mək üçün döyüşmək istəmirdi. Zorla döyüşlərə cəlb edilən erməni əsgərlərinin təslim olmaqdan başqa çarələri qalmırdı. Biz qüdrətli ordunun, güclü sərkərdənin, müzəffər Ali Baş Komandanımızın qalib əsgərləriyik. Ali Baş Komandanımızın rəhbərliyi altında başlayan haqq savaşımız ordumuzun qələbəsi, düşmənin məğlubiyyəti ilə nəticələndi. Erməni işğalçılarının əsirliyində qalan tarixi torpaqlarımız öz azadlığına qovuşdu. Artıq işğaldan azad olunan torpaqlarımız öz doğma sakinlərinin yolunu gözləyir. Gözün aydın Vətən, bütövlüyün bərpa olundu.

**Əsgər Xəyyam Abdulləliyev:**

- Son damla qanımadək döyüşəcəyimə and içdim. Ölsəm şəhid, qalsam qazi olacam, dedim. Bu düşüncələrlə Vətən savaşına könüllü yollandım. Vətən əcdadlarımızın, ata-babalarımızın bizə qoyub getdikləri əmanətdir. Bu torpaqları yağılardan qorumaq, onun müdafiəsində dayanmaq hər birimizin müqəddəs borcudur. Mənfur qonşularımız illərdir xalqımıza görünməmiş faciələr yaşadıblar. Soydaşlarımızı tarixi torpaqlarından didərgin salıblar. Erməni qəsbkarları işğal etdikləri Azərbaycan torpaqlarında hansı vəhşilikləri törətməyiblər ki?! Bu torpaqlar bizə məxsusdur. Erməni vandalları bizim mədəniyyət abidələrimizi, məscidlərimizi, məktəblərimizi dağıdıblar, məhv ediblər. Bunların hər biri cinayətdir. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan bu gün 30 ilə yaxındır ki, işğal altında qalan torpaqlarını geri qaytarır. İşğalçını torpaqlarımızdan qovduq.

**Əsgər Qurban Hüseynov:**

- Əslində, Qarabağ müharibəsi bitməmişdi, sadəcə olaraq döyüşlər dayandırılmış və dondurulmuşdu. Torpaqlarımızın erməni işğalçılarından dinc yolla azad edilməsi məqsədi ilə uzun illər idi ki, danışıqlar aparılırdı. Amma son nəticədə məlum oldu ki, düşmən işğal etdiyi ərazilərimizdən danışıqlar yolu ilə çıxmaq istəmir. Bu azmış kimi, illərlə işğalda saxladıqları əraziləri qaytarmaq əvəzinə, sentyabrın 27-də yeni torpaqlar ələ keçirmək üçün mövqelərimiz üzərinə hücuma keçdilər. Biz düşmən hücumunun qarşısını almaq üçün müdafiə olunmağa başladıq. Qəsbkarlar hücumlarını nə qədər gücləndirməyə çalışsalar da, geriyə addım atmadıq. Torpaqlarımızın azadlığı uğrunda bütün gücümüzlə müdafiə olunduq. Düşmənə sarsıdıcı zərbələr vurduq. Yağılar nə qədər çalışsa-



lar da, güllələrimizdən yayına bilmədilər. Atılan hər güllə bir düşməni məhv etdi. Qısa müddət ərzində mövqelərimizi ələ keçirəcəyinə ümid edən işğalçıların arzuları puç oldu. Biz igidliyimizlə, qəhrəmanlığımızla, dəqiq atəş zərbələrimizlə işğalçıların hücumlarını dayandırdıq. Düşmənin gücü zəifləyən kimi əks-hücuma keçdik. Beləcə, torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi başlandı. Ərazilərimizi dinc yolla qaytarmaq istəməyən erməni qəsbkarlarına bütün döyüşlər-



də sarsıdıcı zərbələr vura-vura irəlilədik. Gərgin döyüşlərdən sonra düşməni illərdən bəri dayandığı mövqelərindən vurub çıxardıq. Zəfər dalınca zəfər qazandıq, uğur dalınca uğur qazandıq. Kənd-kənd, oba-oba, şəhər-şəhər ərazilərimizi erməni qəsbkarlarından azad etdik. Bu gün üçrəngli bayrağımız Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Şuşada və işğaldan azad edilmiş ərazilərimizdə dalğalanır. Çox qürurverici günlər yaşayırıq.

**Əsgər Əmir Nəbiyev:**

- Sözün həqiqi mənasında, Azərbaycan Ordusu çox şərəfli bir tarix yazdı. Uzun illər torpaqlarımızın erməni işğalında qalması xalqımızı çox narahat edirdi. Nəyin bahasına olursa-olsun, bu narahatçılığa son qoyulmalıydı, işğalda qalan doğma ocaqlarımız qəsbdən azad edilməliydi. İllər uzunu ermənilərin nazı ilə oynadığımız bəs edərdi. Düşmən hər addımda hiyləgərlik göstərir, torpaqlarımızdan çıxmaq istəmirdi. Danışıqlarda min bəhanə uydurur, yüz yalan danışırdı. Deməli, qəsbkarlara gücümüzü göstərməliydik. Əgər yağılar gücümüzü görməsəydilər, yəqin ki, torpaqlarımızdan çıxmayacaqdılar. Özünü "məğlubedilməz" hesab edən düşmən qəflətən mövqelərimiz üzərinə hücuma keçdi. "Həyəcan" çağırışı ilə səngərlərimizə tələsdik. Qısa vaxtdan sonra ön mövqeyə yetişdik. Gərgin döyüş gedirdi. Düşmən bütün gücü ilə postlarımıza yaxınlaşmağa çalışırdı. Buna yol vermək olmazdı. Nəyin bahasına olursa-olsun, qəsbkarları geri oturtmalıydıq. Bu məqsədlə müdafiə işlərini gücləndirdik. Güllə və mərmi səsləri yeri-göyü başına götürmüşdü. Bir an olsun belə atəşə ara vermədən döyüşürdük. Yağıların hücumları uzun çəkmədi. Yavaş-yavaş zəifləyən düşmən geri çəkildi. Vaxt itirmədən səngərlərimizdən çıxıb yağıların üstünə atıldıq. Beləcə, Azərbaycan Ordusu yeni zəfərlər qazana-qazana torpaqlarımızı erməni işğalçılarından azad etməyə başladı. Artıq bu gün Azərbaycan zabitinin, Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa erməni qəsbkarlarından azad edilib. Müzəffər Azərbaycan Ordusu gücünü, qüdrətini erməni qəsbkarlarına yaxşıca göstərdi. Mən də bir əsgər kimi Vətən müharibəsində hünər və cəsarətlə vuruşdum.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Mirzə Məmmədov:**

- Torpaqlarımızın hər qarışı mənim üçün müqəddəs və əzizdir. Mənə əziz olan bu torpaq uğrunda vuruşmaq olduqca şərəfli idi. Yurdumuzun uzun illər işğalda qalması biz hərbçiləri çox narahat edirdi. Günlərin birində döyüşlərin başlanacağını və bu narahatçılığa son qoyulacağını gözləyirdik. Axır ki, həmin gün qapımızı döydü. Qorxmadan, cəsarətlə, hünərlə döyüşlərə atıldıq. Böyük igidlik və rəşadət göstərərək torpaqlarımızı erməni işğalçılarından təmizlədik. Yurdumuzu qəsbkarlardan azad etdiyimizə görə bu gün üzümüz gülür, könlümüz açılıb. Təkcə biz yox, illər uzunu əzablarla dolu olan köçkünlük həyatı yaşayan insanlarımız da sevinirlər. Onlar yaxın vaxtlarda doğma ocaqlarına qayıdacaqlarının sevincini yaşayırlar. Bu sevinci, bu fərəhi qaçqınlara, köçkünlərə bəxş etdiyimizə görə özümüzü çox xoşbəxt sanırıq. Artıq Vətən müharibəsi qələbəmizlə başa



çatıb, düşməni məğlubiyyətə uğratmışıq, diz çökdürmüşük. Atəş səsləri kəsilib, silahlar susub. İndi yer də, göy də rahat nəfəs alır. İnşallah, çox qısa müddət ərzində köçkünlər bu yerlərə qayıdacaq, əməkləri, zəhmətləri ilə kənd-kəsəklərimizi cənnətə döndərəcəklər. İşğaldan azad edilmiş şəhər və kəndlərdə həyat əvvəlki axarına düşəcək. Mən daha çox Şuşa şəhərinin işğaldan azad edilməsinə sevindim. Bayrağımızın bu şəhərin üzərində dalğalandığını görəndə xoş hisslər keçirdim. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də çıxışlarının birində demişdir: "...Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir. Qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edib. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar." Şükürlər ki, uğurlu döyüşlərdən sonra Azərbaycan Ordusu üçrəngli bayrağımızı Şuşada dalğalandırdı! O möhtəşəm günü heç vaxt unutmayacağıq.